| Ümumi məlumat | Fənnin adı, kodu və kreditlərin sayı | PSYC304 Təhsil Psixologiyasının Əsasları A-3kredit (6ECTS credits) | |
|---|---|---|---|
| | **Departament** | Psixologiya Departamenti | |
| | **Proqram (bakalavr, magistr)** | **bakalavr** | |
| | **Tədris semestri** | Payız,2017 | |
| | **Fənni tədris edən müəllim** | Aytac Sahil (MA) | |
| | **E-mail:** | aytac.sahil@gmail.com | |
| | **Mühazirə otağı/Cədvəl** | | |
| | **Konsultasiya vaxtı** | | |
| **Prerekvizitlər** | **Prerekvizitlər** - yoxdur | | |
| **Tədris dili** | Azərbaycan dili | | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **Əsas ədəbiyyat**<br>1. Eğitim Psikolojisi – İbrahim Yıldırım ( Ankara 2011)<br>2. Eğitim psikolojisi Gelişim-Öğrenme-Öğretim Binnur Yeşilyaprak 13. Baskı<br>3. Etkili Öğretmenlik Eğitimi –Dr. Thomas Gordan<br>4. Robert E. Slavin "Educational Psychology Theories and Practices" Sixth edition, John Hopkins University<br>**Əlavə Ədəbiyyat**<br>5. Educational Psychology for Effective Teaching – Henson&Eller (USA 1999)<br>6. Gelişim ve Öğrenme psikolojisi – Topses, G (Ankara 2003)<br>7. Educational psychology – Jeanne E.Ormrod (seventh edition)<br>8. Educatinal Pschology Within Teacher Education – Poulou.M 2005<br>9. Child and Adolescent development For Educartors – Miecee, J.L /New York 2002<br>10. Rod Plotnik – İntroduction to pschology | | |
| **Kursun vebsaytı** | Kursla bağlı olan bütün vəsaitlər, materiallar, syllabus əlavə oxu materialları, kursla bağlı məlumatlar tələbələrin e-mail ünvanına göndəriləcək. | | |
| **Tədris metodları** | Mühazirə | | x |
| | Qrup müzakirəsi | | x |
| | Praktiki tapşırıqlar | | x |
| | Testlər | | x |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | Quiz | | 10 |
| | Mövzulara aid tapşırıq və testlər | | 10 |
| | Davamiyyət | | 5 (hər qaib 1 bal) |
| | Müstəqil iş | | 5 |
| | Aralıq imtahanı | | 30 |
| | Final imtahanı | | 40 |
| | Yekun | | 100 |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Quiz-** final imtahanından 2 həftə öncə keçiriləcək.<br>**Davamiyyət-** Tələbələr müəyyən səbəblərdən dərslərin buraxılması (xəstəlik, ailə vəziyyəti və s.) haqqında məlumatı dekanlığa təqdim etməlidirlər. Semestr ərzində maksimum 5 qaib ala bilərsiniz və bu sizin bütün davamiyyət balınızın silinməsinə bərabərdir. Dərsə gecikən tələbələr dərsdə iştirak edə bilər, lakin həmin gün keçirilən heç bir aktivliyə qoşulmayacaq.<br>**Mövzulara aid tapşırıq və testlər-** keçirilən dərslərlə bağlı olur. Tapşırıqlarda iştrak etməyən tələbələr həmin tapşırığın balını itirmiş sayılır və daha sonrakı dərslərdə tapşırığı yaza bilməz.<br>**Müstəqil iş** – Keçdiyimiz mövzularda toxunduğumuz məsələlərlə bağlı 3 səhifədən ibarət (şrift-12) öz fikir və araşdırmalarınıza əsaslanmış orijinal yazı. ( aralıq imtahanından sonra).<br>**Aralıq imtahanı-** Dekanlıq tərəfindən təyin olunmuş tarixdə semestrin ortalarında keçirilir. Aralıq imtahanına düşən suallar həmin imtahana qədər keçilmiş materiallardan ibarət olur.<br>**Final imtahanı**- Semestrin sonunda keçirilir. Final imtahanına düşəcək sualların 80% aralıq imtahanından sonra keçirilmiş mövzulardan, 20% isə aralıq imtahanından əvvəl keçirilmiş mövzulardan ibarət olur.<br>Quizlər, final imtahanında köçürmək qadağandır. Köçürən tələbələrin imtahan nəticələri ləğv olunur.<br>Quizlərdə eləcə də aralıq və final imtahanlarında suallar yalnız keçilmiş mövzulardan salınır. Suallar test, açıq və yarımaçıq (tamamlanmalı) tipdə olacaq.<br>Tələbələrin sinifdə etik olmayan müzakirə və davranışları qadağandır.<br>Suallara doğru olub-olmamağından aslı olmayaraq özünəməxsus yanaşmaya önəm verilir.<br>*Qeyd: həftəsonları üçün psixoloji filmlərə baxmaq tövsiyyə olunacaq. Filmlərin linkləri poçt ünvanlarınıza göndəriləcək. Bu fəaliyyətin həyata keçirilməsi mütləq deyil.* | | |

| | |
|---|---|
| **Kursun təsviri** | Müəllimlik bir xalqın və ölkənin gələcəyini hazırlamaq məsuliyyəti daşıyan önəmli bir peşədir. Təhsil sisteminin yaxşı bir riyaziyyatçıdan daha çox riyaziyyat müəlliminə, yaxşı bir bioloqdan daha çox biologiya müəlliminə ehtiyacı var. Bir müəllim öz sahəsini nə qədər mükəməl bilirsə-bilsin, təhsil psixologiyası fənnini öyrənməyən, uşaq və yeniyetmə psixologiyasından anlamayan, fərdi fərqlilikləri nəzərə almayan, güclü və zəif xüsusiyyətləri ilə şagirdlərini yetərincə tanımayan, şagirdlərlə ünsiyyət bacarığı qazanmamış müəllimdən yaxşı öyrədən olması gözlənilməməlidir.<br>Bu fənnin tədrisi nəticəsində tələbələrdə (gələcək müəllim) şagirdlərlə doğru ünsiyyət, öyrənmə və öyrətmə prosesi, öyrətmənin şagirdin ümumi psixoloji durumunu nəzərə alaraq həyata keçirilməsi, sinfin idarə olunması kimi önəmli biliklər aşılanır.<br>Təhsil psixologiyasının cavablandırmağa çalışdığı bəzi suallar var :<br>- Məhsuldar öyrənmə yolları hansılardır?<br>- Şagirdlər necə motivasiya edilir?<br>- Bəzi şagirdlər öyrənmə prosesində digərləri ilə müqayisədə niyə daha yaxşıdırlar?<br>- Oxuma , yazma və riyazi bacarıqlar necə formalaşır?<br>- Qrupla yoxsa tək öyrənmək daha yaxşıdır?<br>- Yaxşı müəllim nə etməlidir? |
| **Kursun məqsədləri** | Fənnin tədrisi nəticəsində tələbə aşağıdakı məsələlər haqqında lazımi biliyə malik olmalıdır:<br>• təhsil psixologiyası ilə bağlı anlayışları ayırd edə bilməli<br>• təhsil psixologiyasının təhsil-öyrətməyə qazandırdığı xidmətləri anlaya bilməli<br>• təhsil psixologiyasında istifadə olunan üsulları izah etməli<br>• təhsil psixologiyasının təhsil və müəllim baxımından önəmini dəyərləndirə bilməli<br>• fərdin inkişafı ilə baglı əsas anlayışları bilməli<br>• inkişaf mərhələlərini xüsusiyyətləri ilə birgə qavramalı<br>• inkişafa təsir edən amilləri bilməli<br>• inkişaf mərhələləri ilə öyrənmə arasında əlaqə qura bilməli<br>• doğumla başlayan inkişaf prosesində irsiyyət-mühit qarşılıqlı təsirini bilməli<br>• fiziki inkişafın insan həyatına, eləcə də sosial münasibətlərə və nəticədə öyrənməyə təsirini bilməli<br>• koqnitiv inkişafı öyrənməli və koqnitiv yanaşmalardan əldə olunan bilikləri müəllimlik sənətinə tətbiq edə bilməli<br>• uşaqlarda cinsi inkişafı öyrənməli və cinsi tərbiyənin önəmini bilməli<br>• uşaq və yeniyetmələrdə normal cinsi davranışla problemli cinsi davranışı ayırd edə bilməli<br>• əxlaqın nə olduğunu , fərd və cəmiyyət baxımından önəmini qavramalı<br>• şəxsiyyətin inkişaf mərhələlərini bilməli və biliklərini işində tətbiq etməyi öyrənməli<br>• şəxsiyyətin inkişafında məktəbin, müəllimin və dostlarının təsirini müəyyənləşdirə bilməli<br>• öyrənmə və öyrətmə prosesini dərindən bilməli<br>• şagirdi tanımanın önəmini anlamalı<br>• şagirdi tanıma texnikalarını bilməli<br>• şagird tanımanın təhsil baxımından nəticələrini qiymətləndirə bilməli<br>• motivasiyanın dərsdə önəmini anlamalı və motivasiya texnikalarından məlumatlı olmalı<br>• sinifin idarəoluması haqqında biliklərə yiyələnməli<br>• bədən dilini düzgün istifadə etməyi öyrənməli<br>• problemli situasiyalarda düzgün reaksiyanı seçməyi bacarmalı |
| **Tədrisin (öyrənmənin) nəticələri** | Kursun sonunda tələbələr aşağıdakıları edə biləcəklər:<br>**MODUL I**<br>**İnkişaf Psixologiyası**<br>• İnkişaf Psixologiyasının qanunlarlnı bilir, izah edir<br>• Yaş mərhələlərinin xüsusiyyətlərini bilir, izah edir və yaş xüsusiyyətlərinə görə onlarla necə münasibət qurmağı bacarır<br>• Davranışların növlərini bilir, müqayisə edir, nümunə çəkir |

- İdrak nəzəriyyəsini bilir, idraki inkişafın yaş mərhələlərinə görə sıralayır
- Qardnerin zəka növlərini bilir və dərs proqramına tətbiq edir
- Bloom taksanomiyasını sıralayır və izah edir

**MODUL II**

**Öyrənmə Psixologiyası**

- Öyrənmə nəzəriyyələrini bilir
- Öyrənmə prossesini izah edir
- Öyrənməyə təsir edən amilləri bilir və nümünələr çəkir

**MODUL III**

**Sinifin Idarəolunmas;**

- Sinifin idarəolunma qaydalarını bilir  və tətbiq edir
- Problemli davranışlı şagirdlərlə ünsiyyət qurmağı bacarır
- Şagirdlərin sinifdənkənar problemlərini təxmin edir və öyrənmə prossesinə təsirini nəzərə alır
- Motivasiya etmənin yollarını bilir və bacarır

**Cədvəl**

| Həftə | Tarix | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|
| **1** | .09.2017<br><br>.09.2017 | Psixologiyaya giriş.Təhsil psixologiyası. Müəllim hazırlığında təhsil psixologiyasının rolu<br><br>İnkişaf Psixologiyasına Giriş | Rod Plotnik – İntroduction to pschology<br>Educational psychology – Jeanne E.Ormrod (seventh edition)<br>Gelişim ve Öğrenme psikolojisi – Topses, G (Ankara 2003) |
| **2** | .09.2017<br><br>.09.2017 | İnkişaf psixologiyası , əsas anlayışları, qanunları.<br><br>İnkişafın Təbiəti, Yaş mərhələləri və fərdin inkişafı. Müəllim üçün inkişafın təbiətini bilmək niyə önəmlidir? | Gelişim ve Öğrenme psikolojisi – Topses, G (Ankara 2003)<br>Child and Adolescent development For Educartors |
| **3** | .09.2017<br><br>.10.2017 | Doğumdan sonrakı dövrdə duyğular və fiziki inkişaf<br><br>Bihevioral inkişaf ( davranışların formalaşması, öyrənilməsi) | Human Development – Vander Zanden, J.W (New York 1997)<br>Theories of Personality : Understanding Persons – Cloninger, S.C (New Jersey 2004) |
| **4** | .10.2017<br><br>.10.2017 | J.Piajenin zenhi inkişaf nəzəriyyəsi<br><br>L.Vıqotski və zehni (koqnitiv) inkişaf . J.Piajenin nəzəriyyəsi ilə qarşılıqlı müqayisəsi. | Theories of Personality : Understanding Persons – Cloninger, S.C (New Jersey 2004)<br>Theories of Personality : Understanding Persons – Cloninger, S.C (New Jersey 2004) |
| **5** | .10.2017<br><br>.10.2017 | Əxlaqi  və Cinsi inkişaf nəzəriyyələri<br><br>Şəxsiyyətin inkişafı (Z.Froyd və E.Erikson) | Eğitim Psikolojisi – Ibrahim Yıldırım ( Ankara 2011)<br>Cognitive and ethical growth : The making of meaning– Perry,W/G ( San Francisco 1981) |
| **6** | .10.2017<br><br>.10.2017 | Fərqli təhsil dövrlərinə (yaş mərhələləri) görə şagird şəxsiyyətinin inkişafı<br><br>Şagird tanıma (inkişaf xüsusiyyətlərinə görə şagirdi tanıma ) | Eğitim Psikolojisi – Ibrahim Yıldırım ( Ankara 2011) |
| **7** | .10.2017<br><br>.11.2017 | Təhsil psixologiyasında xüsusi qayğıya ehtiyacı olan şagirdlər<br>Öyrənmə psixologiyasına giriş, şüurlu və şüursuz davranış | Theories of Learning – Hilgard, E.R , Bower, G.H (New York 1966) |
| **8** | .11.2017<br><br>.11..2017 | Öyrənmənin qanunları<br><br>İnsan öyrənməsi və yaddaş, öyrənmə bacarığı<br><br>Öyrənmə növləri ( bihevioral yanaşmalar, sosial | Etkili Öğrenme ve Öğetme – Açıkgöz, K.Ün (İzmir 1996) |

| | | | |
|---|---|---|---|
| | | öyrənmə, geştalt və humanist yanaşmalara görə öyrənmə) | |
| **9** | .11.2017<br><br><br>.11.2017 | Öyrənmə strategiyaları, xatırlama və unutma Düşünmə prossesi( daxili nitq və hərəkət, sözlü düşünmə), anlayışları necə öyrənirik? Əsas öyrənmə mühitləri ; Ailə-məktəb-sinif<br><br>Öyrənməyə təsir edən amillər (Məktəb binası və siniflərin və hazırlanmasının öyrənmə prosesinə təsiri), Aktiv Öyrənmə | Ready or Not: Some Psychological Aspects of Readiness In relation To Learning Effectiveness – Weininger, O (1972)<br><br>Saban, A. Öğrenme Öğretme Süreci: Yeni teori ve Yaklaşımlar. Ankara 2002 |
| **10** | .11.2017<br>.11.2017 | Sinifin idarəolunması<br>Effektli müəllimlik strategiyaları, Müəllimin rolları, yanaşması, ruhi sağlamlığı yerində olan müəllim | The Excellent Online Instructor: Strategies for Professional Development<br>Rena M. Palloff , Keith Pratt |
| **11** | .11.2017<br><br>.11.2017 | Problemli davranışlı şagirdlər, sinifdə mübahisə, davranışların idarəolunması<br>Müəllimin Bədən Dili | S Sınıf yönetimi Zeki Kaya Ankara 2002ınıf yönetiminde kuram ve uygulama Cevat Celep |
| **12** | .12.2017<br>.12.2017 | Ünsiyyət, ünsiyyətdə çətinliklər<br>Müəllimlər şagirdlərin problemləri olduqda nələr etməlidir (edə bilər) | Gelişim ve Öğrenme psikolojisi – Topses, G (Ankara 2003) |
| **13** | .12..2017<br>.12.2017 | Evdəki öyrənmə problemlərini necə həll etmək olar ?<br>Valideyn-müəllim-şagird münasibəti | Çocuk eğitiminin anahtarı – Humphreys,T (1999) |
| **14** | .12.2017<br><br>.12.2017 | Temperament, xarakter və qabiliyyətlər<br><br>Motivasiya və Uğur | Öğrenme ve Motivasyon Psikolojisi<br>Kolektif -Türkiye Enformasyon Bürosu Yayınları |
| **15** | .12.2017<br>.12.2017 | Effektli dinləmənin faydaları<br>Şagird Qrupları Yaratma | Sınıf yönetimi Zeki Kaya Ankara 2002 sınıf yönetiminde kuram ve uygulama Cevat Celep |
| **16** | Yanvar 2018 | **Final İmtahanı** | **Uğurlar!** |